# Bütün dağıdılmış şəhər və kəndlərimiz bərpa ediləcək



***Xeyli vaxtdır ki, Azərbaycanın işğaldan azad olunmuş şəhər və kəndlərində tikinti-quruculuq işləri aparılır. Azərbaycan Prezidenti İlham Əliyev son aylarda bütün ərazilərimizin bərpa olunacağı ilə bağlı, demək olar ki, hər bir çıxışında məlumat verib. Dövlət başçısı birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva ilə Şuşada Cıdır düzündə təşkil olunan "Xarıbülbül" musiqi festivalının açılışında çıxışı zamanı da bildirdi ki, azad edilmiş bütün torpaqlar bərpa ediləcək. Artıq Ağdam şəhərinin bərpa işlərinə start verilib. Quruculuq işlərinə, infrastruktur layihələrinin icrasına başlanılıb.***

Dövlət başçısı hazırda azad edilmiş ərazilərdə ziyanın hesablanması, şəhərlərin baş planlarının hazırlanması işlərinin görüldüyünü qeyd etdi. Birinci növbədə, Ağdam şəhərinin baş planı hazırlanaraq, rayon ictimaiyyətinə təqdim edildi.

Elə Şuşanın özündə də bərpa işləri başlayıb, Yuxarı Gövhər ağa məscidi artıq təmir olunub. 1768-1769-cu illərdə inşa edilmiş Yuxarı Gövhər ağa məscidi də işğal dövründə erməni vandalizminin qurbanı olmuşdu. Ramazan bayramı ərəfəsində Şuşada yeni möhtəşəm məscidin təməli qoyulub. Ermənilərin işğalı altında olduğu dövrdə qurumuş "Xan qızı Natəvan" bulağı da artıq bərpa olunub. Prezident Şuşada olarkən dedi ki, biz Şuşamızı, Ağdamımızı, Cəbrayılımızı, Füzulimizi, Zəngilanımızı, Qubadlımızı, Laçınımızı, Kəlbəcərimizi qəlbimizdə yaşatmışdıq. Dağıdılmış məscidləri biz bərpa edəcəyik.

Azərbaycan lideri mayın 20-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı videoformatda müzakirələri zamanı çıxış edərkən də ərazilərin bərpası məsələsinə toxundu. Bildirdi ki, işğaldan azad olunmuş ərazilər tamamilə dağılmış vəziyyətdədir. 400–450 kilometr yol boyu yalnız dağıdılmış şəhər və kəndlər görünür. Erməni vandalları azərbaycanlıların inşa etdiyi evlərin və məktəblərin tikinti materiallarını, dam örtüklərini və pəncərələrini oğurlayıblar. Onlar işğal olunmuş torpaqlarda Azərbaycanın mədəni irsini silməyə çalışıblar – işğal altındakı torpaqlarda 60-dan artıq məscid dağıdılıb. Məqsəd azərbaycanlıların heç vaxt o torpaqlara geri dönməsinə imkan verməmək olub.

Prezident faktlarla bəyan edib: "Təsəvvür edin ki, sovet dövründə Azərbaycanın ən inkişaf etmiş şəhərlərindən biri olan, yalnız şəhər əhalisi 40 min nəfərdən ibarət Ağdam tamamilə dağıdılıb. Müharibədən əvvəl 25-30 min sakini olmuş Füzuli şəhəri darmadağın edilib. Füzulini oktyabr ayında azad edəndən sonra mən hərbçilərimizə göstəriş verdim ki, binaların birinin üzərində Azərbaycan bayrağını dalğalandırsınlar. Onlar isə bunun üçün bir dənə olsun belə salamat bina tapa bilmədilər və bayrağı açıq ərazidə yüksəltdik. Digər şəhərlərdə də vəziyyət eynidir, bütün infrastruktur dağıdılıb".

Dövlət başçısı buna görə də görüləcək işlərin çox olduğunu və artıq işlərə başlandığını qeyd edib. Onun sözlərinə görə, bu ilin sonunadək azad olunmuş ərazilər 100 faiz elektrik enerjisi ilə təmin ediləcək. Magistral yolların inşasına başlanılıb: "Bizim inkişafla bağlı baş planımız artıq hazırdır. Biz dəymiş zərərin hesablanması üçün beynəlxalq şirkətləri dəvət etmişik və işğalçıları beynəlxalq məhkəmələrə verəcəyik. Onlar qanunsuz olaraq bizim sərvətlərimizi talayıb, xüsusilə də qızıl yataqlarımızı. Artıq bu işlə məşğul olan həmin şirkətlərlə bağlı hüquqi prosedurlara başlanılıb. İnfrastruktur layihələrinə artıq start verilib. Mən azad olunmuş əraziləri "yaşıl enerji" zonası elan etmişəm və orada əsasən bərpaolunan enerji mənbələrindən – su, günəş və külək enerjisindən istifadə ediləcək".

***Arzuman MURADLI,***
***YAP Səbail rayon təşkilatının sədr müavini, iqtisadiyyat üzrə fəlsəfə doktoru***

Xalq qəzeti 2021.- 3 iyun.- S.4.